**Fəaliyyəti məhdudlaşdırılan pendir sexinə dair məlumat**

**(16 may 2023)**

Nəzarət tədbirləri çərçivəsində Agentliyin müfəttişləri tərəfindən Bərdə rayonu, Qaraağacı kəndində fəaliyyət göstərən fiziki şəxs Bayramov Şahmar Musa oğluna məxsus pendir sexində yoxlama keçirilib. Yoxlama zamanı sexdə gigiyena qaydalarına və qida təhlükəsizliyi tələblərinə əməl edilmədiyi, həmçinin müəssisədə sanitar-texniki və sanitariya-gigiyenik vəziyyətin qüvvədə olan normativlərə cavab vermədiyi aşkarlanıb. Belə ki, müəssisədə temperatur rejiminə əməl edilmədiyi, mexaniki havalandırma sisteminin quraşdırılmadığı, texnoloji ardıcıllıq prinsipinin pozulduğu, divar səthlərinin asan yuyulabilən materialla üzlənmədiyi, pəncərələrin qoruyucu torla təmin olunmadığı, işçilərin ilkin və dövri tibbi müayinədən keçmədiyi və xüsusi geyim qaydasına əməl olunmadığı, dezinfeksiya işlərinin aparılmadığı, etiket məlumatlarında məhsulun tərkibi, saxlanma müddəti haqqında məlumatların qeyd edilmədiyi və digər nöqsanlar müəyyən olunub.

Aşkar edilmiş nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq sahibkar barəsində inzibati protokol tərtib edilib, pendir sexinin fəaliyyəti məhdudlaşdırılıb və icrası məcburi göstərişlər verilib.